UOT 913 (4/9)

# ZƏNCANIN KƏND TURİZMİNİN İNKİŞAFINDA COĞRAFİ İNFORMASİYA SİSTEMİNDƏN İSTİFADƏ

**Bəhraməli Xudayi**
***Bakı Dövlət Universiteti***
***ba_khodaei@yahoo.com***

*İnkişaf etməkdə olan ölkələrin çoxunda kənd yaşayış yerləri və kənd turizmi sənayesi üzvi bağlılığa malik deyil. Nizamsız yaşayış yerləri böyük şəhərlərlə bağlıdır. Qeyri-məntiqi xidmət mərkəzləri, kənd əhalisi və turistlərin bölgüsü zəruri xidmətlər və məhsula ehtiyacı artırmışdır. Bu məqalədə coğrafi informasiya sistemindən istifadə ilə kənd yaşayış yerləri və turizminin vəziyyəti araşdırılmışdır. Araşdırmanın əsas fərziyyələri aşağıdakılardan ibarətdir:*

*- Zəncan rayonunun yaşayış yerlərində əhali, turistlər və xidmətlərin təqdimi ilə bağlı fəaliyyətin bölgüsü;*

*- Sosial və mədəni amillərin kompleks təsirə malik olması.*

**Açar sözlər:** kənd, yaşayış yerləri, turizm, xidmətlər sahəsi, sənaye.

İranda bazar münasibətlərinin genişlənməsi, inkişafın neft gəlirləri ilə bağlılığı kəndlərin ətraf bölgələrdən təcrid halda müstəqil şəkildə öz inkişaflarını davam etdirməyə səbəb olmuşdur. Bu proses əhalinin kiçik bölgələrdən daha çox şəhərlərdə toplanmasına gətirib çıxarmışdır.

Şəhərlərdə əhalinin mərkəzləşməsi və şəhərlərdə daha çox imkanların olması «naqis dövriyyə» şəklində daha çox əhalinin şəhərlərə miqrasiyası və bu işin beləcə davam etməsinə səbəb olmuşdur (4,48).

Bu proses müxtəlif şəhər və kənd bölgələrində fərqlərin yaranması və imkanların şəhərlərdə mərkəzləşməsi ilə nəticələnmişdir. Kənd bölgələrində (böyük kəndlərin bir neçəsi istisna olunmaqla) əhaliyə xidmət göstərmək üçün lazımi potensial çoxdur və yaşayış yerlərində uyğunluq aradan qalxmışdır.

Pərakəndə yaşayış yerləri heç nəyə riayət etmədən birbaşa böyük şəhərlərlə əlaqə yaradırlar (2,28). Xidmət mərkəzlərinin düşünülmədən bölgüsü, kənd əhalisi və turistləri zəruri xidmət və məhsullardan istifadə imkanından məhrum etmişdir. Yaşayış yerlərinin strukturunun bu problemləri ən aşağı səviyyədə də nəzərə çarpır.

Məqalədə coğrafiya informasiya sistemindən istifadə ilə kənd turizminin inkişafı üçün Zəncanın kəndləri ölkənin yaşayış yerlərinin bir nümunəsi kimi

araşdırılır və bu suallara cavab verməyə səy olunur ki, hazırki şəraitdə kənd xidmət mərkəzlərinin bölgüsü necədir və kəndlərdə xidmətlər, rifah, ictimai və iqtisadi çatışmazlıqları hansılardır?

Buna görə yaşayış yerinin hazırkı strukturunun tanınması, fəaliyyətlər arasında qarşılıqlı əlaqələrin araşdırılması və bölgədə onun problemləri araşdırmanın məqsədlərindən sayılır. Bu istiqamətdə bu fikir araşdırılır ki, yaşayış yerlərinin bölgüsü və onların fəaliyyəti əhali, turistlərin miqdarı ilə əlaqədə və Zəncan rayonunun yaşayış yerlərinin sistemində xidmətlərin təqdimində nizamsızlıq vardır və təbii (dağlıq zona olması və yağıntının azlığı), sosial (yararsız əlaqə və mədəni şəbəkələr) amillərin bu nizamsızlığın yaranmasında rolu vardır.

Bu araşdırmada istifadə olunan texnikanın istifadəsi ilə mövcud çatışmazlıqların aradan qaldırılmasına kömək etmək və kənd turizmi ilə yaşayış yerlərinin strukturunun genişlənməsi arasında uyğunluq yaratmaq olar.

**Araşdırmanın üsulu.** Lazım olan məlumatlar kitabxanalar, rəsmi sənədlər və meydan araşdırmalarında (müşahidə və müsahibə yolu ilə) toplanmışdır. Verilənlərin təhlilində coğrafiya informasiya texnikası (10,30-31), təsnifat (14,177), amillərin təhlili və əsas araşdırmaların təhlili seçilmiş (11,145) və kənd yaşayış yerlərinin yaxşılaşdırılması, kənd turizminin inkişafı üçün bütün üsuldan istifadə olunmuşdur.

Araşdırma aparılan məntəqəni Zəncanın kəndləri təşkil edir. Bölgədə sayı 25 olan kəndlərin dağınıqlığına görə məlmutaların toplanması işində çətinliklə üzləşsək də, bütün yaşayış yerləri tədqiqata cəlb olunmuşdur. Bütün kəndlər haqqında məlumatlar toplanmış və araşdırılmışdır.

**Nəzəri əsaslar və əvvəlki araşdırmalar.** İran dünyada bəşər mədəniyyətinin formalaşdığı ocaqlarından olmuş və bu ölkədə ilk mədəniyyət abidələri bu ölkəyə eramızdan əvvəl V minilliyə aid edilir. Buna görə İran müxtəlif tarixi dövrlərdə diqqət mərkəzində olmuşdur, ölkəyə müxtəlif məqsədlər, o cümlədən ticarət, elmi fəaliyyət, araşdırma, mədəniyyət və əyləncə məqsədi ilə səfər etmişlər.

İslamdan sonra İranda Qurani-Kərim, Nəhcül-bəlağə, imamların hədislərinə (ə) əsasən müsəlmanların dünya səyahətinə marağı artmışdır. Bu səbəbdən, demək olar ki, İslam İranda turizmə də böyük təsir göstərmişdir. Bu dövrdə çox sayda səyyahlar İrana səfər etmiş və müxtəlif bölgələrdən, o cümlədən kəndlərdən bu ölkəni görməyə gəlmişlər. Bu haqda müxtəlif tarixi mənbələr və məlumat verilmişdir (7,306).

Yaşayış sistemləri mərkəzi yerlərin uyğunluğu sistemində nizama salınmalıdır ki, iqtisadi inkişafın ötürülməsi ilə uyğunluq təşkil etsin, məhsullar və xidmətləri daha yaxşı üsullarla kəndlilərə təqdim edilsin (13,141).

Mərkəzi yerlər bölgənin sosial-iqtisadi genişlənməsində mühüm rol oynayır. Bu mərkəzlərin sayı, onların coğrafi bölgüsü və fəaliyyəti bölgənin inkişafı prosesində mühüm amillərdən sayılır (18,57). Fərqli ölçü və ixtisaslaşma-

ya görə yaşayış yerləri arasında sıx bağlılıq olmalıdır. Bu, sosial-iqtisadi və siyasi münasibətlərin yüksəlməsi mərkəzi yerlərdə xidmətlərdən istifadə imkanının rahatlığına səbəb olur (17,25).

İranda abadlıq proqramlarında kəndlər xüsusi yer tutur. Beşinci proqramda kəndlərə xidmətlərin genişləndirilməsi sosial sahədə əsas hədəflərdən biri sayılır. Həmçinin şəhər və kənd arasında fərqin azaldılması məqsədilə infrastruktura kapital qoyuluşu, xidmətlər və rifah hallarını yaxşılaşdıran güzəştlər, ölkənin gələcək şəhərlərinin planı, kəndlərin sayının azaldılması və nəhayət, kənd əhalisinin əksəriyyətinin xidmət və güzəştlərdən istifadə etməsi bu proqramın əsas məqsədlərindən sayılır və bu məqsədlərə çatmaq üçün ölkənin kəndləri «şəhərlər-kənd mərkəzləri-kəndlər» şəklində qruplaşdırılmışdır (1,34).

1979-cu il inqilabından sonra kəndlər və «dağılmış» bölgələrə infrastruktur xidmətlərin təqdimi, məşğulluq imkanlarının müxtəlifliyi yolu ilə kəndlərin gəlirinin nisbi artımı, kənd əhalisinin nizama salınması, kiçik şəhərlərin təchizat və qüvvətləndirilməsi, kənd mərkəzlərinin inkişafı, kənd-şəhərlərin yaradılması, münasib kənd sənayesinin qurulması, tayfalar üçün münasib yerlərin müəyyən edilməsi milli məqsədlərdəndir (16,30-33).

Maykl Braynın «İranda yaşayış yerlərinin silsiləsi və Yəzdin fəaliyyət dairəsi» adlı doktorluq dissertasiyası bu araşdırma baxımından maraqlıdır. O, öz araşdırmasında yaşayış yerinin seçilmə sistemi, mərkəzi abadlıqların müəyyənləşdirilməsi, abadlıqlar silsiləsi və onlar arasında fəaliyyət münasibətlərini araşdırmış, bölgə kəndlərini dörd səviyyədə – əsas abadlıqlar, böyük abadlıqlar, kiçik abadlıqlar və kəndə bölmüşdür (3).

R.P.Missra ölkə səviyyəsində imkanların qeyri-bərabər bölgüsü və iqtisadi strukturun mövcud vəziyyətini araşdırandan sonra neçə səviyyəli yerin proqramlaşdırılmasını tədqiq etmişdir. Missra bu fəaliyyətə əsaslanan neçə səviyyəli proqramlaşdırma üçün lazım olan alətləri inkişaf mərkəzlərindən bilir ki, şəhər sakinləri və kəndlilərin hər biri öz ehtiyaclarının təmini üçün mərkəzlərdən hər birinə müraciət edə bilərlər (15,83).

İslam inqilabı məskən idarəsi seminarların təşkili ilə kəndlərin nizama salınmasını araşdırmışdır. Kənd yaşayış yerlərinin nizamlanması zəminində çoxsaylı dissertasiyalar yazılmışdır (5,8). Bu sahədə Zəncan ostanı səviyyəsində də araşdırmalar aparılmışdır (9).

Araşdırmamızın əvvəlkilərdən üstünlüyü bundadır ki, yerli araşdırma, təkrar baxış, mövcud vəziyyətin müşahidəsi, kəndlilər, turistlər və ziyalılar ilə müsahibə və nəhayət, informasiya xarakterli anketlərin doldurulması həyata keçirilmişdir. Yeni texnikaya əsasən mövcud informasiyadan adı çəkilən araşdırmalardan heç birində istifadə olunmamışdır. Burada kənd turizminin inkişafı prosesində təbii amillərin rolu araşdırılmış, həmin səbəbdən də bu məqalə mövcud xidmətlərlə bağlı informasiyaya əsaslanan əvvəlki araşdırmalardan kəndlərin bölgüsü ilə fərqlənir.

**Araşdırılan bölgə.** Zəncan ostanı şimaldan Ərdəbil və Gilan bölgəsi, şimal-şərqdən və şərqdən Qəzvin, cənubdan Həmədan, cənub-qərbdən Kürdüstan və Qərbi Azərbaycan, qərbdən Şərqi Azərbaycan ostanı ilə əhatə olunmuşdur. Möcüzat bölgəsi Zəncanda yerləşir. O, şimaldan Zəncan şəhəri və Zəncanrud və Əbhər rayonu, şərqdən Bənab, qərbdən Buğdakəndi və cənubdan İcrud rayonu ilə sərhəddədir. Onun sahəsi 383 $km^2$, əhalisi isə 12964 nəfərdir.

**Təbiətinə görə aşağıdakı təbii rayonları vardır**

A) Dağlıq ərazi - nisbətən yüksək və ovulmuş dağlardan ibarətdir, dairəvi zirvələr və çoxsaylı dərələri vardır. Torpağın örtüyü zəifdir və çınqıllıdır. Bitki örtüyü əsasən mövsümi otlaqlar üçün yararlıdır. Onun sahəsi 12327/4 hektardır.

B) Təpələr - nisbətən alçaqdır və üzəri əhəng təbəqəsi ilə örtmüşdür. Ümumilikdə otlaq üçün yararlı olan bitki örtüyü vardır və dağların ətəyində dəmyə əkinçiliyi aparılır. Onun sahəsi 11636/3 hektardan çoxdur.

C) Yaylalar - qədim süxurlar əhəng təbəqəsi ilə örtülmüşdür. Otlaq bitkiləri yayılmışdır. Onun sahəsi 9399 hektardan çoxdur.

Torpaq qatı qalındır və əsasən dəmyə əkinçiliyi üçün yarayır. Onun sahəsi 3363/9 hektardır.

D) Dağətəyi ərazi - çay boyu tədricən alçalır və əsasən suvarma əkinçiliyi üçün yararlıdır. Onun sahəsi 1560/5 hektardan çoxdur.

**Əhalisinə görə** 1966-2006-cı illər ərzində Möcüzat bölgəsində dəyişikliklər baş vermişdir. Bölgənin əhalisi 1966-cı ildə 9130 nəfərdən 2010-cu ildə 12964 nəfərə çatmışdır (9).

**İqtisadiyyatına görə** Möcüzat bölgəsində ən mühüm fəaliyyət növü kənd təsərrüfatıdır. Bölgənin 9805 nəfər fəal əhalisindən (83%) kənd təsərrüfatı, (12%) xidmət və (5%) mədən sənayesi bölməsində işləyirlər (9).

**Kənd yaşayış yerlərinin əlaqə sistemi zəifdir**

Möcüzat bölgəsində kəndlər adətən iqtisadi və fəaliyyət baxımından bir-biri ilə o qədər əlaqədə deyillər. Adətən hər kənd birinci növbədə Zəncan şəhəri ilə əlaqədədir. Nadir hallarda bölgədə abadlıqlar digər kəndlərlə (kəndin mərkəzi və s.) şəhərdən çox əlaqədə olur.

Möcüzat bölgəsində əsas yollara yaxın kəndlərdə miqrasiya azdır. Məsələn, Razbin, Əjdhatu, Papayi, Çurzəq kəndlərinin mühacirləri çox cüzidir, turistləri isə çoxdur. Yollardan nisbətən aralıda olan kəndlərdə turist qəbulunun miqdarı az və mühacirlərin miqdarı çoxdur. Misal olaraq Duran, Bayəndər, Səqltulini göstərmək olar.

Yolların yaxınlığında olan kəndlərdə fabriklər çoxdur. Razbin, Əjdhatu (qalay zavodu) Ağcapirə (sənaye şəhərciyi), Dizəcbalada (şəhər bağı) taxta, beton, duz, mozaika düzəltmə, qalay zavodları vardır. Əksinə, yola çıxışı olmayan kəndlər sənaye baxımından inkişaf etməmişlər.

Bu qanunauyğunluq kəndlərin yüksəkliyi ilə də izah olunur. Məsələn,

səhra kəndlərində zavodlar, dağ kəndlərindən daha artıq fəaliyyətdədir.

**Qatmən üsuluna əsasən kəndlərin təsnifatı**

Bu üsulda xidmətlər, güzəştlər, infrastruktur, iqtisadi fəaliyyətlərindən istifadə ilə yaşayış yerlərinin təsnifatı verilmişdir (12,245-248).

Bu araşdırmada 2010-cu ilin məlumatları aşağıdakı kimidir:

- Tədris və mədəniyyət mərkəzləri: məktəb, kitabxana, məscid
- Turizm və əyləncə mərkəzləri: çay, idman meydançları, bulaqlar və sədlər
- Səhiyyə və müalicə mərkəzləri: hamam, səhiyyə evi, həkim, diş həkimi, kənd tibb bacısı
- Siyasi və idarə mərkəzləri: kənd islam şurası, kənd xidmətlər mərkəzi, kənd kooperasiya şirkəti, intizam idarəsi
- Ümumi xidmətlər: otel, kassa, rabitə, əsas yola çıxış, kommunikasiya sistemi
- İstehsal, ticarət və xidmətlər müəssisələri: dəyirman, mağaza, bank, yanacaq doldurma məntəqəsi, komission, maşın təmiri, kənd təsərrüfatı, motosikl, avtomobil, kustar sənayesi, kənd təsərrüfatı sənayesi, süd məhsulları sənayesi

Yuxarıdakı fəaliyyət və məlumatlar müsbət və mənfi kodları ilə verilmişdir və sonrakı mərhələdə araşdırılan yaşayış yerləri xidmətlərə əsasən azdan çoxa düzülmüş və nəticədə kəndlər dörd səviyyəyə bölünmüşdür (cədvəl 1).

Cədvəl 1

**Qatmən üsuluna əsasən bölgə yaşayış yerlərinin bölgüsü**

| Kəndlərin adı | xidmətlərin sayı | səviyyənin nömrəsi |
|---|---|---|
| Papayi, Əjdhatu, Çurzəq | 15 – 19 | 1 |
| Azadsəfli, Dizəcbala, Razbin, Ramin, Qinərcə, Qaratəpə, Göcəqiya | 10 – 15 | 2 |
| Azadəlya, Ağcapirə, Barutağacı, Bayəndər, Duran, Reyhan, Həsənabdal, Pənbəcuğ, Səqltuli, Salmanlı, Səhlə, Qazıabad, Qulukəndi, Zəngəlabad | 5 – 10 | 3 |
| Qəhvəxanasürməli | 1 – 5 | 4 |

**Amillərin təhlilinə əsasən kəndlərin təsnifatı**

Bu araşdırmada Qatmən üsulundan istifadə olunmuşdur ki, onun əsasında matrisada araşdırılan kəndlərdə fəaliyyətlər enən şəkildə təsvir olunmuşdur. Bunun yaradılmasından sonra oxşar kəndlər müəyyən olunur və oxşar kəndlər müəyyən olunandan sonra digər matrisada kəndlərdən hər birində baş vermə ehtimalı həmin dəstə kəndlərinə əlavə olunur və digər matrisada əhali mərkəzləri və sütunlar, dəyişikliklər yer alır. Sonrakı mərhələdə kompyuterdən istifa-

də ilə bütün sətrlər arasında uyğunluq əmsalı hesablanıb başqa matrisada uyğunluq matrisası adı altında yer alır.

Uyğunluq əmsalları, bu matrisanın ünsürlərindən hər biri toplanıb ümumi dəstələrin sayına bölünür, hər dəstəyə bağlı orta əmsal əldə olunur. Bu orta rəqəmlərdən uyğunluq əyriliyində istifadə edib yaşayış yerlərinin vəziyyəti müəyyən olunur. Dəyişiklik, ya orta əyrilərə əsasən kəndlər ikinci cədvəldə olan şəkildə təsnif olunur:

Cədvəl 2

**Amillərin təhlili üsuluna əsasən yaşayış yerlərinin təsnifatı**

| **Səviyyənin nömrəsi** | **Dəyişən say** | **Kəndin adı** |
|---|---|---|
| 1 | 75-100 | Çurzəq |
| 2 | 50-75 | Papayi |
| 3 | 25-50 | Əjdhatu, Razbin, Ramin |
| 4 | 1-25 | Azadəliya, Azadsəfli, Azgapirə, Ağaci, Bayəndər, Pənbəçuğ, Həsənabdal, Duran, Dizəcbala, Reyhan, Zəngəlabad, Səqəltuli, Salmaqlı, Səhlə, Qazıabad, Qaratəpə, Qulukəndi, Qəhvəxana Sürməli, Qinərcə, Göcəqiya |

**Əsas təhlil üsuluna əsasən təsnifat**

Aşağıdakı mərhələlərin əsas yazılarının təhlili üsulunun icrasına əsasən yerinə yetirilməlidir:

1. Birinci matris cədvəlini təşkil etmək. Belə ki, göstəricilər cədvəl və bölgə sütunlarında sıralarda yer alır.
2. Yuxarıdakı matris cədvəlini stantart etmək
3. Yuxarıdakı cədvəl üçün xüsusi miqdarı hesablamaq, bunun üçün SRSS CD-dən istifadə olunur.
4. Ən çox miqdarla bağlı olan birinci amili (F1) matris miqdarlarında ölçü kimi standart edib vurulur.
5. Müxtəlif göstərici miqdarlarını sıralama şəklində toplayıb göstərici sütununu əldə edin.
6. Əldə olunmuş göstəricini rütbələrə bölünür (11,146).

Əkin sahəsi, tədris, turizm, səhiyyə, idarə, rifah xidmətlərinin mərkəzlərindən istifadə olunmuşdur. Amma torpaq ehtiyatlarında ilk araşdırmalara əsasən əkin torpağı baxımından ən yaxşı kəndə 25 baldan çox verilmişdir və ən az əkin torpağına malik olan kəndə 1 bal verilmişdir, qalan kəndlər ardıcıllıqla ballara ayrılmışdır.

Su ehtiyatları iki hissəyə - yeraltı və yerüstü sulara bölünmüşdür və ən çox yerüstü və yeraltı suyu olan kəndə 25 bal və ən az olana 1 bal verilmişdir

və qalan kəndlərin mövcud vəziyyəti ardıcıllıqla ballara bölünmüşdür.

Bölgənin topoqrafiyası dörd hissəyə bölünmüş və səhrada yerləşən kəndlərə 25 bal, səhra ilə dağətəyi arasında yerləşən kəndlərə 17 bal, dağətəyi kəndlərə 13 bal, dağ kəndlərinə 9 bal verilmişdir. Əhali nəfər və mal-qara başla araşdırılmışdır.

Cədvəl 3

**Əsas toplanmışların təhlilinə əsasən Möcüzat kəndlərinin təsnifatı**

| Səviyyə | Balın miqadarı | Kəndin adı |
|---|---|---|
| 1 | 7 - 18 | Çurzəq, Əjdhatu, Papayi, Razbin, Ramin, Zəngəlabad |
| 2 | 1 - 6 | Azadsəfli, Ağcapirə, Dizəcbala, Səhlə, Qaratəpə, Göcəqaya |
| 3 | -3 - 0 | Barutağacı, Pənbəçuğ, Həsənabdal, Reyhan, Salmanlı, Qulukəndi, Qeynərcə |
| 4 | -13 - -4 | Azadəlya, Bayəndər, Duran, Səqəltuli, Qazıabad, Qəhvəxanasürməli |

Araşdırmanın nəticələri göstərir ki, yaşayış yerlərinin bölgüsü və onların fəaliyyəti əhalinin, turistlərin miqdarı ilə əlaqədə və Möcüzat bölgəsinin yaşayış yerlərinin sistemində nizamsızdır. Çünki Ağcapirə, Göcəqiya kəndlərinin amillərinin təhlilinə əsasən, oxşar bal əldə olunmuş və bir səviyyədə yer almışlar (3-4). Qatmən təsnifatında təkcə Göcəqiya birinci yerdədir (1-3).

Əsas toplantılar üsulunda kəndlərin təsnifatı aparılmış və elmi baxımdan daha çox diqqət ayrılmışdır. Burada Abcapirə və Göcəqiya bir səviyyədə yerləşirlər (3-12).

Əgər indiki şəraitdə Göcəqiya səhiyyə xidmətlərinin mərkəzi kimi araşdırılsa, daha çox əhali nəzərə alınmaqla əvvəlki siyasi bölgülər şəraitində aparılır. Bu vəziyyət ona gətirib çıxarmışdır ki, səhiyyə xidmətləri mərkəzi və məktəblər orada tikilmişdir. Halbuki əsas yoldan bəhrələnən Ağcapirə kəndində münasib əkin torpağı, yerüstü su, sənaye şəhərciyi ilə qonşuluq səbəbindən turistlərə xidmətin öhdəsindən gələ bilər. Buna əsasən, hazırda araşdırılan bölgə kəndlərində xidmətlərin bölgüsü münasib nizama malik deyil.

Digər tərəfdən, hazırda Ağcapirə, Göcəqiya, Qulukəndi, Səqltuli daha çox istehsal xidmətlərini əldə edirlər. Kavənd-Qulukəndidən keçən əlaqə yolu qış fəslində daha çox problemlərlə üzləşir.

Cənub şərq bölgəsində Azadsəfli kəndləri kompleksində indi də kənd təsərrüfatı istehsal xidmətlərinin təmini Ramin kəndi vasitəsilə baş verir. Halbuki Azadsəfli iki xüsusiyyətə malikdir. Birinci Azadəliya, Qınırca və Ramin kəndləri ilə müqayisədə yaxşı yerdə yerləşir, ikincisi, bu kəndin mərkəzindən keçən asfalt yoluna görə daha münasib imkanlara malikdir və kənd təsərrüfatı xidmətlərinin təqdimi mərkəzi kimi təqdim olunmuşdur.

Yaxud Razbin, Dizəcbala və Əjdhatu bir-birinə yaxın məsafədə yerləşirlər (bu üç kəndin arasındakı məsafə orta hesabla 4 km-dən azdır) Amma hər üç kənd ictimai, rifah və istehsal sahələrində turistlərə xidmət edirlər, halbuki Zəngəlabad, Qəhvəxanasürməli və Pənbəcuğ kəndlərinin turistəlri xidmətlərdən bəhrələnmək üçün çox məsafə getməlidirlər, hətta bəzən daşınma problemi ilə də üzləşirlər.

Deməli, yaşayış yerlərinin bölgüsü və xidmətlərin təqdimi Möcüzat kəndinin yaşayış yerləri sistemində kənd turizminin inkişafı üçün münasib deyil.

Araşdırmanın nəticələri aşağıdakıları da göstərir:

Birincisi, bölgənin topoqrafiyası elə formadadır ki, kənd kompleksinin mərkəzində kənd turistlərinin cəlbinə səbəb olan Bayəndər yüksəklikləri vardır. Bu mövqe abad yerlərin pərakəndəliyi baxımından ənənəvi şəraitdə müsbət amil sayılsa da, münasib xidmətlərin təqdimi və lazımi əlaqələrin qurulması üçün mənfi amil hesab olunur. Bu amil Bayəndər, Qazıabad, Rehyan turistlərinin xidmətlərdən istifadə üçün şəhərlərə gedirlər ki, onların yolda problemlərlə üzləşmələri də istisna olunmur.

İkincisi, dağlıq yerlər, kələ-kötür eniş, quru dərələrin olması, bulaqlar turistlərin gediş-gəlişi və daşınması üçün problemlər yaradır. Bu manelər sürüşmələr və yolların olmaması ilə güclənir ki, bu da çox zaman qəzaların baş verməsi ilə nəticələnir.

Üçüncüsü, Zəncan ostanı kürd tayfalarının yaşayış yerinin qonşuluğunda yerləşir. Azəri, kürd və başqa millətlər həmişə qonşuluq və sülh şəraitində yaşasalar da, ənənəvi iqtisadiyyat və maldarlıq səbəbindən bunların münasibətləri həmişə yaxşı olmamış və bəzən yerli toqquşmalara da gətirib çıxarmışdır. Nümunə üçün inqilabın əvvəllərində kəndlərdə yaranan təhlükəsizlik davam etmiş və yollarda təhlükəli yerlərin yaranması ilə nəticələnmişdir ki, bu da öz növbəsində turistlərin azalmasına zəmin yaratmışdır.

Bu amil qədim dövrlərdən kənd məskənlərinin təhlükəsizliyinin təmini üçün dağlıq bölgələrə sığınmaları ilə nəticələnmişdir. Bu da hazırda kənd turistlərinin əlaqələrini çətinləşdirmiş və onlara xidmət göstərilməsindən problemlər yaradır. Kənd mərkəzlərinin nizamsızlığını iqlim və təhlükəsizlik amillərində görmək olar.

Turistlərin sayı ilə əlaqədar xidmətlərin təqdimi baxımından da çox hallarda yaşayış yerləri arasında qeyri-bərabərlik müşahidə olunur, xidmətlərin zəifliyi turistlərin sayının azalmasına səbəb olmuşdur.

**Təklif nümunəsi kimi**

Kənd yaşayış yerlərinin nizama salınmasının zərurət, rol və əhəmiyyətinə əsasən turizmin inkişafının əsaslarından biri kimi kənd əhalisi arasında rifahın yaxşılaşdırılmasını qeyd edə bilərik.

**Birinci səviyyə (kənd-şəhər ya kompleksin mərkəzi)**

Əjdhatu kəndi Zəncan şəhərinə çox yaxın yerləşir, təqribən şəhərin qonşusu sayılır və bir kənd-şəhəri rolunu oynayır.

Kəndlərin mərkəzi olan Əjdhatu kəndi turistlərin cəlb edilməsi və əlavə insanların saxlanması üçün otel, bank, xəstəxana, idarələr turist və kəndlilərin ixtiyarına verməlidir.

**İkinci səviyyə: Xidmət mərkəzləri**

Əjdhatu (kompleksin mərkəzi, turizm bulaqları), Papayi (xizəksürmə məkanları olan), Çurəğ (əhali) Ağcapirə (sənaye şəhərciyinin qonşuluğu) Razbin və Azadsəfli coğrafi baxımdan əsas yolların yaxınlığında yerləşir, Zəncan-Bicaar və Zəncan-Dəndi əsas yolu kənd turistlərinə xidmət üçün aşağı səviyyədədir. Xidmət ehtiyaclarının qüvvətləndirilməsi ilə bu mərkəzlərdə turistləri bu mərkəzlərə cəlb etmək olar.

Bu kəndlər aşağı səviyyəli xidmətlərə malik olmaqdan yanaşı göstərilən xidmətlərə də malik olmalıdırlar: otel, səhiyyə mərkəzləri-məktəb, yaxşı və mənsub kooperasiya şirkətləri, poçt və teleqraf mərkəzləri, şəhər telefonu, kitabxana, ümumi hamam, müxtəlif təmir yerləri, intizam idarəsi, yaxşı nəqliyyat vasitələri, təmizlənmiş su boruları və s.

**Üçüncü səviyyə: Kompleks mərkəzlərinin örtüyü altında olan kəndlər**

Dizəc, Qulukəndi, Səhlə, Ramin, Göcəqiya, Səqltuli, Barutağacı, Duran, Qəhvəxanasürməli, Reyhan, Bayəndər, Qazıabad, Azadəliya, Qəynərcə, Zəngəlabad, Pənbəçuğdan ibarətdir və onun mərkəzi kəndləri o kəndləri əhatə edir ki, onların xidmət səviyyəsi və mərkəzləri aşağı səviyyədədir və öz xidmətlərinin təminindən əlavə aşağı səviyyəli kəndləri öz nəzarəti altında saxlamışdır. Bu kəndlərdən bəzisi Zəncanın mərkəzinə yaxınlıq səbəbindən xüsusi xidmətlər və fəaliyyətlərdən istifadə edirlər. Bu kəndlər qüvvətləndirilsə, bir neçə ətraf kəndlərin turistlərinə xidmət göstərə bilərlər ki, bura nəqliyyat vasitələri, məktəb, teleqraf, səhiyyə hamamı, su təmizləmə borusu, mağaza, kitabxana, xalçatoxuma emalatxanaları daxildir. Bu kəndlərdə sadalanan xidmətləri yaratmaqla bölgə kəndlərinin yaşayış yeri sistemini qüvvətləndirmək və daha çox turistlərin cəlbinə nail olmaq olar.

**Dördüncü səviyyə: kompleksin tamlığını yaradan kəndlər**

Qaratəpə, Salmanlı, Həsənabdal kəndlərinin adını çəkmək olar. Bu kəndlər əhali və xidmətlər baxımından daha aşağı səviyyədə yer tutur, birinci, ikinci və üçüncü səviyyədə öz ehtiyaclarını təmin etmək üçün Zəncan şəhərinin mərkəzinə üz tuturlar. Yaşayış və məişətin yaxşılaşdırılması, ictimai rifahı yüksəltmək üçün münasib xidmətlər yaradılmalıdır. Qaratəpə kəndində hava idmanı üçün yerlər, Həsənabdalda qayıqsürmə idmanı gücləndirilməlidir ki, turistlər cəlb olunsun (cədvəl 4).

Cədvəl 4

## Möcüzat kənd yaşayış yerlərinin təsnifatı

| Səviyyə | Fəaliyyət növü | Say | Mərkəzin adı |
|---|---|---|---|
| bir | kompleksin mərkəzi | 1 | Əjdhatu |
| iki | kompleksin mərkəzi | 6 | Azadsəfli, Ağcapirə, Əjdhatu, Papayi, Çurzəq, Razbin |
| üç | kompleksin nəzarətində olan kəndlər | 16 | Səqltuli, Qulukəndi, Göcəqiya, Barutağacı, Duran, Qəhvəxanasürməli, Reyhan, Bayəndər, Qaziabad, Azadəlya, Qeynərcə, Ramin, Səhlə, Zəngəlabad, Dicəzbala, Pənbəçuğ |
| dörd | kompleksin tamlığını yaradan kəndlər | 3 | Qaratəpə, Salmanlı, Həsənabdal |

## ƏDƏBİYYAT


1. Asayiş Hüseyn. Kənd proqramlaşdırılması idarəsi, Pəyame-nur, Tehran: Peyamnur, 2002, fars dilində, s. 3-34.
2. Ərcüməndniya Əsğər, Əhalinin məskunlaşma sistemində şəhərlərin rolu, İqtisad-siyasi jurnal, № 7,1991, fars dilində, s. 28.
3. Bədri Seyyidəli, Kəndin inkişaf mərkəzlərinin mexanikası, Tehran, dissertasiya işi, 1990, fars dilində, s. 22-4.
4. Piran Pərviz, Ətraf və şəhərin genişləndirilməsi, Siyasi-iqtisadi informasiyalara jurnalı fars dilində, №6, 2002, s. 32.
5. Cavidan Muctəba, Kənd yaşayış yerlərinin nizama salınması, Tehran, dissertasiya işi, fars dilində, 2002, s. 65.
6. Dəhnəvi Seyyid Cavad, Kənd yaşayış yerlərinin nizama salınması, Tehran, dissertasiya işi, 2009, fars dilində, s. 81.
7. Rizvani Məhəmmədrza, Sabit turizm fəaliyyəti ilə kənd turizminin inkişafı, Tehran Universiteti, 2004, fars dilində, s. 306.
8. Zəkalab Əli, Kənd yaşayış yerlərinin nizama salınması, Tehran, dissertasiya işi, 2004, fars dilində, s.38.
9. Ölkənin idarəçilik və proqramlaşdırma təşkilatı, Zəncanın ümumi hesablamasının nəticələri, 2000, fars dilində, s. 45.
10. Ziyayi Məzahir, GİS-dən kənd təsərrüfatının birləşdirilməsi və kəndin inkişafında istifadəsi, dissertasiya işi, 1378, 2002, fars dilində, s. 30-31.
11. Kələntəri Xəlil, Bölgənin proqramlaşdırma və inkişafı, Tehran: Xoşbin, 2004, fars dilində, s. 145-146.
12. Kələntəri Xəlil, SPSS CD-sindən istifadə ilə ictimai-iqtisadi araşdırmalarda verilənlərin təhlili, Tehran: Şərif, 2004, fars dilində, s. 245-246.
13. Hollandiyadan DHV müşavir mühəndisləri, Kənd mərkəzlərinin proqramlaşdırılması üçün yolar, Tehran: Cahad, 1997, fars dilində, s. 247.
14. 1371.14. Hollandiyadan DHV müşavir mühəndisləri, Kənd mərkəzlərinin proqramlaşdırılması üçün yollar, Tehran: Şəhr və rusta.1993, fars dilində, s. 177.
15. Missra A. İranda kənd abadlığı üçün məkan proqramlaşdırılması üsulunun tanınması, Büdcə proqramlaşdırılması təşkilatı, Tehran Büdcə idarəsi, 1999, fars dilində, s. 83.

16. Yasuri Məcid. İqtisadi-ictmai inkişafda proqramlaşdırmada kənd abadlığı, Tehran Büdcə idarəsi, 1999, fars dilində, s. 30-33.

## ИСПОЛЬЗОВАНИЕ ГЕОИНФОРМАЦИОННОЙ СИСТЕМЫ В РАЗВИТИИ СЕЛЬСКОГО ТУРИЗМА ЗЕНДЖАНА

**БАХРАМЛЫ ХУДАИ**

### РЕЗЮМЕ

Во многих развивающихся странах, сельские местности проживания и сельский туризм не обладают органическими отношениями. Места нерегулярного проживания связаны с крупными городами. Нелогичные центры обслуживания, распределение сельского населения и туристов увеличили потребность в необходимых услугах и продуктах. В данной статье было исследовано состояние сельских местностей и сельского туризма с использованием географической информационной системы. Основные гипотезы исследования состоят из нижеследующих:

- Распределение, связанное с презентацией населения, туристов и услуг в местах проживания Зенджанского района.
- Здесь, комплекс естественных, человеческих и культурных факторов попадают под влияние.

**Ключевые слова:** село, места проживания, туризм, сфера обслуживания, промышленность.

## DEVELOPMENT OF RURAL AREAS FOR THE ENRICHMENT OF TOURISM OF ZANJAN USING A GEOGRAPHIC INFORMATION SYSTEM

**BAHRAMLI KHODAEI**

### SUMMARY

In many developing countries, rural living and rural tourism have no organic relationship. Places of irregular stay are connected with big cities. Illogical service centers, the distribution of rural population and the tourists have increased the need for necessary services and products. In this article, the condition of rural areas and rural tourism was studied via using a geographic information system.

The main hypotheses of the study consist of the following:

- The distribution associated with the presentation of the population, tourists and services in places of residence of Zanjan area.
- Here, a complex of natural, human and cultural factors fall under the influence.

**Key words:** village, living places, tourism, service places, industry.

Redaksiyaya daxil olıdu: 18.09.2011-ci il
Çapa imzalandı: 02.11.2011-ci il